***TARİX***

https://doi.org/10.59849/3006-1342.2025.3.3
UOT 94(479.24)

*Emin Arif oğlu Şıxəliyev*
*Naxçıvan Dövlət Universiteti*
*Beynəlxalq münasibətlər kafedrası*
*Tarix elmləri doktoru, dosent*
*E-mail: eminarif@ndu.edu.az*
*https://orcid.org/0000-0003-3194-8964*

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ VƏ POSTMÜHARİBƏ DÖVRÜNDƏ FRANSANIN ROLU, MÖVQEYİ VƏ PLANLARI

*Ermənistan-Azərbaycan münasibətlərində və İkinci Qarabağ müharibəsində Fransanın mövqeyi olduqca diqqət çəkmişdir. ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri olaraq Fransanın mövqeyi həmişə Azərbaycan üçün düşündürücü olmuşdur. Lakin Fransa hər dəfə Ermənistan-Azərbaycan münasibətlərində açıq şəkildə ermənipərəst mövqedən çıxış etmişdir. Nəinki İkinci Qarabağ müharibəsində, müharibədən sonra Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar fonunda da Fransa əvvəlki siyasətini davam etdirmişdir. Əlbəttə ki, belə bir yanaşma BMT TŞ-nın beş daimi üzvündən biri kimi "sülhsevər" Fransanın tərəfsizlik siyasətinə tamamilə ziddir. Məqalədə Fransanın həm İkinci Qarabağ müharibəsində, həm də sonrakı dövrlərdə Fransanın mövqeyi və planları analitik süzgəcdən keçirilmişdir.*

*Açar sözlər:* İkinci Qarabağ müharibəsi, postmüharibə dövrü, Fransa, Ermənistan, Azərbaycan, Türkiyə, geosiyasi rəqabət

## *Giriş*

İkinci Qarabağ müharibəsinin bitməsinin əsas nəticəsi olaraq Azərbaycan Ermənistan üzərində bariz üstünlük nümayiş etdirib bu dövləti ağır kapitulyasiyaya məruz qoysa da, bu məsələ öz elmi, siyasi aktuallığını bundan sonra da qoruyacaq. Düzdür, işğal altında qalan torpaqlar xilas edilsə də, müəyyən problemlərin həll olunması istiqamətində maneələr hələ də aradan qaldırılmayıb. Əlbəttə ki, bu kimi məsələlərdə problemin tam şəkildə öz real həllini tapmasına böyük güclərin geosiyasi maraqları və ikili standartlar siyasəti mane olur. Məlum olduğu kimi, ədaləti tənzimləyən sistem beynəlxalq hüquqdur. Böyük dövlətlərin isə ədaləti yox, geosiyasi maraqları var. Bu, həmişə belə olub, bundan sonra da olacaq. Cənubi Qafqaz regionunda təhlükəsizliyi təhdid edən və sabitliyi pozan dövlət Ermənistan, ədaləti bərpa etmək istəyən, öz haqq işi uğrunda mübarizə aparan tərəf isə Azərbaycandır. Lakin bu mübarizə və müharibədə geosiyasi maraqlarını daim əsas tutan böyük güclər isə ədalət mövqeyindən yox, ikili standartlar mövqeyindən çıxış edirlər. Məhz bu amillər əsas götürülərək məqalədə Fransanın İkinci Qarabağ müharibəsində və sonrakı dövrlərdə tutduğu mövqe müqayisəli şəkildə təhlil olunur.

## **Ermənistan-Azərbaycan münasibətlərində Fransanın mövqeyi.**

Biz bu məqalədə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əvvəlki vəziyyətə yenidən qayıtmaq niyyətində deyilik. Bu kimi məsələlərə əvvəlki tədqiqatlarımızda müfəssəl şəkildə yer vermişik. Sadəcə olaraq onu qeyd etmək istəyirik ki, vaxtilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi ATƏT-in Minsk Qrupunun həmsədrləri olan Rusiya və ABŞ-la yanaşı

Fransanın da nəzarəti altında idi. Münaqişənin həlli ilə bağlı onların hər birinin öz mövqeyi vardı ki, bu da danışıqlarda uğur əldə edilməsini çətinləşdirirdi. Aydındır ki, hər üç dövlət qlobal güc mərkəzlərini təmsil edir. Həmin ölkələrin təcavüzkara təzyiq etmək üçün geosiyasi nüfuza malik olduqları da qəbul edilən reallıqdır. Məsələ burasındadır ki, bu və ya digər münaqişələrin həlli istiqamətində əsas problem böyük dövlətlərin münaqişəni həll etmək bacarıqlarında yox, onların siyasi iradələrindədir. Minsk Qrupunda Dağlıq Qarabağ münaqişəsinin həllinə ciddi marağın olmamasının nəticəsi idi ki, qurum öz öhdəliklərini yerinə yetirmirdi. Minsk Qrupunun həmsədr ölkələri sırf münaqişənin gərginləşməsinin qarşısını almaq üçün regiona səfərlər ediblər. Beləliklə də onlar daha çox "münaqişənin həlli mexanizmləri"nin icrası ilə deyil, "münaqişənin idarə edilməsi" ilə məşğul olublar. Azərbaycan ictimaiyyətində də həmsədrlərin dəfələrlə regiona səfərləri haqlı olaraq **"turistik ekskursiya"** kimi qiymətləndirilib.

Həm beynəlxalq təşkilatların, həm ATƏT-in Minsk Qrupu üzvlərinin, həm də digər dövlətlərin yeritdikləri ikili standartlar siyasətinin nəticəsi idi ki, Ermənistan tərəfi problemin öz real həllinə yanaşmaq istəməmiş, üstəlik, atəşkəs rejimini də sıx-sıx pozmuşdur. Nəticədə 2020-ci ilin sentyabr ayında baş vermiş müharibə Qarabağ münaqişəsinin əslində dondurulmuş olmadığını ortaya qoydu. Daim böyük dövlətlər tərəfindən dəstəklənəcəyini ümid edən Ermənistan təmas xəttini pozmağa davam edir, psixoloji baxımdan Azərbaycana zərbə vurmağa çalışır və qıcıqlandırma metodlarından istifadə edirdi. Ermənistanın Baş naziri Nikol Paşinyanın ***"Qarabağ Ermənistandır və nöqtə"*** kimi özündən razı və beynəlxalq hüquqa zidd olan daha sərt bəyanatlar səsləndirməsi və yeni bir macəra həvəsiylə atdığı yanlış addımlar yeni müharibənin xəbərçisinə çevrildi. Halbuki Paşinyana qədərki Ermənistanın dövlət başçıları və rəsmiləri həmişə münaqişənin əsas tərəfləri kimi Azərbaycan və Dağlıq Qarabağ olaraq dünyaya çatdırmaq istəyir və müharibənin Azərbaycanla Dağlıq Qarabağ arasında olduğunu irəli sürürdülər. Onlar guya Ermənistan tərəfinin danışıqlar prosesində konstruktiv olmaq istədiklərini bildirir, hətta dünya birliyinə Dağlıq Qarabağ ermənilərinin öz milli müqəddəratını təyin etməsini istədiklərini, heç bir ərazi iddialarının olmadığı kimi təqdim edirdilər. Lakin Baş nazir Nikol Paşinyanın ***"Qarabağ Ermənistandır və nöqtə"*** bəyanatı belə demək mümkündürsə, Ermənistanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı etiraf xarakterli işğalçı siyasətini ortaya qoydu. Ermənistan artıq bütün dünyaya özünün necə bir dövlət olduğunu tanıtdı.

27 sentyabr 2020-ci il tarixində Ermənistan tərəfindən atəşkəsin pozularaq Azərbaycan torpaqlarına gerçəkləşdirdiyi hücum "ani müharibə"nin başlanmasının işarəsi oldu. Qeyd etmək lazımdır ki, Azərbaycanda həm rəsmi səviyyədə, həm də xalqda artan torpaqların qaytarılması arzusu da bu işarənin xəbərçisi idi. Nəticədə Azərbaycan tərəfi əks-hücum gerçəkləşdirərək işğal altındakı ərazilərini xilas etdi.

Müharibədə Fransa, Rusiya, ABŞ və digər dövlətlərin, beynəlxalq təşkilatların müharibənin dayandırılması və dərhal müzakirələrə başlanmasının vacib olduğunu bildirmələrinə baxmayaraq, Türkiyə, Pakistan, Şimali Kipr, Ukrayna, İsrail və s. dövlətlər hər zaman Azərbaycanın yanında olduqlarını göstərdilər.

"Qarabağ Ermənistandır" deyən, Şuşada yallı oynayıb andiçmə mərasimlərində iştirak edən, işğal altındakı torpaqlarda məskunlaşma aparan və oraya terrorist qruplar yerləşdirən Nikol Paşinyanın məzlum vəziyyətə düşərək dünya liderlərindən imdad dilədiyini bütün dünya gördü. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, Ermənistan düşdüyü vəziyyət qarşısında ənənəvi psixologiyasından çıxış edərək, Azərbaycanda guya Suriyadan gətirilən muzdlu döyüşçülərin, xüsusilə cihadçı qrupların olması ilə bağlı saxta məlumatlar yaydı. Əsas məqsəd dünyanın xristian ölkələrinin, xüsusilə də böyük güclərin diqqətini özünə çəkmək və xristian dövlətlərin Azərbaycana qarşı səlib yürüşlərini formalaşdırmaq idi. Ermənistanın bu çağırışları qarşısında ilk növbədə Fransa açıq şəkildə Ermənistanın yanında olduğunu bildirdi.

Heç təsadüfi deyildir ki, Fransa Prezidenti Emmanuel Makron ***"Dağlıq Qarabağda suriyalı cihadçılar məsələsi 'oyunu dəyişdirən' çox ciddi reallıqdır"***, – deyərək şantaj mahiyyətli bu məsələnin Avropa Şurasının müzakirəsinə çıxarılmasının vacibliyi ilə bağlı ənənəvi ermənipərəst mövqeyini ortaya qoydu [16]. Halbuki hal-hazırda İraq, Suriya və Livandan PKK və digər terrorçularının Ermənistana gətirilməsi və daha sonra Ermənistan tərəfindən işğal olunmuş Qarabağdakı Azərbaycan torpaqlarına yerləşdirilməsi, eyni zamanda muzdlu döyüşçülərin bölgədəki fəaliyyəti barədə kifayət qədər məlumatlar vardır [14; 18]. Ancaq Fransa və onun kimi düşünən dövlətlər və dövlət rəsmiləri nədənsə Ermənistanın özünün terrorist təşkilatlarla sıx əlaqə içərisində olduğunu görməzdən gəlirlər. Bu məsələdə ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Fransanın tərəfsiz mövqe nümayiş etdirməli olduğu xüsusilə qeyd edilməlidir.

Burada olduqca təhlükəli bir məqamın olduğuna diqqət çəkmək istərdik. Məlum olduğu kimi, öldürmək və baş kəsmək, terror aktlarına cihad kontekstindən yanaşaraq **"Allahu Əkbər"** nidaları altında öz niyyətlərini gerçəkləşdirmək din adından yola çıxan terroristlərin başlıca qayəsidir. Halbuki İslamda haqsız yerə və əsassız şəkildə öldürmək əmri qətiyyən yoxdur. Bu, planlı şəkildə İslamı beynəlxalq arenada qaralamaq və ləkələmək kampaniyasına xidmət edən bir amildir. Məhz "cihadçı qruplar" kimi təhlükəli bir ifadənin işlədilməsi Azərbaycanı qaralamaq kampaniyasına xidmət edən bir çağırışdır. ***"Allahu-Əkbər nidaları ilə baş kəsən terroristlərin guya Azərbaycanın yanında cəbhədə xristian ermənilərə qarşı vuruşmaları kimi"*** fikirlərin formalaşdırılması səlib və ya xaçlı səfərlərinin növbəti bir addımı kimi xarakterizə oluna bilər.

Bundan başqa, Fransa Türkiyə Silahlı Qüvvələrinin də müharibədə iştirakını qabardaraq, saxta xəbərləri özünün media resurslarında tirajladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də öz növbəsində çox tutarlı cavablar və arqumentlərlə həm cihadçılar məsələsi ilə bağlı, həm də Türkiyə Silahlı Qüvvələrinin müharibədə iştirakı ilə bağlı həm Fransanın, həm də digər ölkələrin dövlət telekanallarına da ortaya atılan bütün yalanları və bu yalanların müəlliflərini ciddi şəkildə ifşa etdi.

**Fransanı Ermənistana yaxınlaşdıran səbəblər.**

Fransanın ermənyönümlü siyasət yeritməsi bir çox amillərlə izah oluna bilər. Əvvəla, Fransa çox sayda ermənilərin yaşadığı və güclü erməni lobbisinin mövcud olduğu ölkələrdən biridir. Ermənilər üçün Fransa ən etibarlı sığınma dövlətidir. Hətta bəzi tədqiqatçılar erməni diasporunun "doğum haqqında şəhadətnamə"sinin 1915-ci il hadisələri, "təvəllüd yeri"nin isə Fransa olduğu barəsində həmfikirdirlər [2, s. 225]. Fransız ictimaiyyətində ermənilərə olan rəğbət hissi olduqca güclüdür. Bu rəğbətin sosioloji, aktual və tarixi səbəbləri vardır. Sosioloji olaraq fransız ictimaiyyətinin terrorizm qəlibinə girməsinə baxmayaraq, silahlı mübarizəyə soyuq münasibət göstərmədiyini qeyd etmək mümkündür. Fələstin Azadlıq Təşkilatı (FAT), İrlandiya Respublika Ordusu (İRO), Euzkadi Ta Askatasuna – Bask Azadlıq Təşkilatı (ETA), PKK kimi təşkilatların fəaliyyətləri bəzi fransız qurumları tərəfindən "azadlıq mübarizələri və fəaliyyətləri" olaraq mənimsənmişdir. ASALA kimi terror təşkilatının törətdiyi cinayətlər və qətl hadisələri gözlənilən reaksiyaya səbəb olmamış, Orli hadisəsindən sonra belə erməni cinayətkarları "terrorist" kateqoriyasına daxil edilməmişlər. 15 iyul 1983-cü ildə Paris yaxınlığındakı Orli hava limanında Türk Hava Yolları bürosu qarşısında partlayan bomba 4-ü fransız, 2-si türk, 1-i amerikan və 1-i də isveçli olmaqla, 8 nəfərin ölümünə və təxminən 60 nəfərin də yaralanmasına səbəb olmuşdu. Bu terrorun ASALA tərəfindən törədildiyi ortaya çıxmışdır (ətraflı məlumat üçün bax: 28). Buna baxmayaraq, ASALA-nın ən məşhur üzvlərindən biri olan Varujan Karapetyan 18 il həbsə məhkum edildikdən sonra azadlığa buraxılmış və Ermənistanda məskunlaşmışdır. Lakin o, fransız ictimaiyyətindən heç bir neqativ reaksiya görməmişdir [4, s. 168].

Ermənilərə duyulan rəğbətin altında olduqca məşhur və sevilən erməni mənşəli fransızların da olduğunu qeyd etmək mümkündür. Müğənni Çarlz Aznavur, kino rejissorlarından Henri

Verneuil və Robert Quediquyan, televiziya spikeri Daniel Bilalyan, keçmiş futbolçulardan Yuri Corkayev və Alain Poqosyan və s. göstəriləcək ən başlıca nümunələrdən biridir. Ancaq bütün bu məşhurlar tək başlarına **"yan"** şəkilçili adamlara Fransada duyulan rəğbəti açıqlamaq üçün kifayət etmir. Şüuraltında yatan bu rəğbətin əsas səbəblərindən birinin Mişel Manukyanla bağlı olduğu faktlar içərisindədir. Bu ad bütün fransızlara tanışdır və eyni zamanda doğmadır. Nasistlərin işğalı əsnasında faşizmin Fransada dayağı olan Vişi hökuməti tərəfindən öldürülən və beləliklə, adını "Qırmızı Afişalar"a *(Affiche Rouge)* yazdıran bu erməni mənşəli kommunist inqilabçı fransızların şüuraltında azadlıq, qəhrəmanlıq və şəhidlik kimi məfhumlarla bütünləşmişdir. Diqqət yetirilsə, başda Manukyan olmaq üzrə adlarını sadaladığımız bütün şəxslər sırf erməni olduqları üçün deyil, göstərdikləri fəaliyyətə və tutduqları mövqeyə görə Fransada məşhurdurlar [2, s. 250].

Şübhəsiz ki, Fransanı Ermənistana yaxınlaşdıran səbəblər arasında dini, milli, psixoloji amillər də xüsusilə qeyd edilməlidir. Əvvəla, Fransada ermənilərə göstərilən rəğbətin və türklərə duyulan düşmənçiliyin kökündə xaçlı səfərlərinin (1096-1270) özünəməxsus yeri vardır. Məşhur türk tarixçisi Rəşid Erer xaçlı səfərlərinin sırf türklərə qarşı olduğunu qeyd edərək [12, s. 16] göstərir ki, beşinci və altıncı yürüşlər istisna olmaqla, xaçlı səfərlərinə qatılanların başında həmişə fransızlar (franklar) gəlmişlər. Fransız mənşəli Papa II Urban tərəfindən ilk səfərə Fransada qərar verilmiş, gedənlərin əksəriyyəti də fransızlardan mütəşəkkil olmuşdur. Bu səbəbdəndir ki, müasirləri arasında ən yaxşı tarixçi olan Benedikt keşişi Quybert de Noqent (1053-1124) bu səfərlərə **"Gesta Dei per Francorum – Fransızların bacarığı ilə Tanrının amalı"** adını vermişdir [12, s. 25].

Müəllif digər bir yerdə də yazır ki, ruhanilərin xristianları istədiyi istiqamətə yönəltmək üçün əllərində dəhşətli bir silahı vardır ki, o da günahları bağışlamaq metodudur [12, s. 25]. Keşişlər müsəlmanların və xüsusilə də türklərin guya Qüdsü ziyarətə gedən xristianlara zülm və işgəncə verdiklərini xalqa təlqin edirdilər. Papa II Urban türklərə qarşı elan etdiyi səfərə gedəcək olanların hamısına heç bir cəzaya və kəffarəyə məruz qalmamaq şərtilə bütün günahlarının bağışlanacağını bildirmiş [12, s. 28-29] və belə əmr etmişdi: *"Tanrı belə olmasını buyurur. Bunu Ruhul-Qüds əmr edir. Ey İsanın müdafiəçiləri! Səlib yürüşləri sizin nicatınız və səy-i əbədiyyətinizdir"* [12, s. 38].

Fransızların ermənilərlə tanışlığı və münasibətləri də bu səfərlər dövründə yaranmışdır. İstanbuldan Qüdsə qədər bütün yol boyunca xaçlılarla birlikdə olan ermənilər səlibçilərin qida və sursat baxımından bütün ehtiyaclarının təmin olunmasında, eyni zamanda Adana, Tarsus, Toros dağlarının cənub bölgələri, Kilikiya, Antakya, Kayseri, Konya, Sivas və s. bölgələrin işğal edilməsində böyük rol oynamışdılar. Hətta öz sədaqətlərini nümayiş etdirərək erməni qızlarını belə fransızlara peşkəş çəkmişdilər [bu barədə bax: 3, s. 49; 21, s. 32; 22, s. 534; 23, s. 83-84].

Xaçlı səfərləri dövründə ermənilərin səlibçilərə olan sədaqətini və onlarla yaxın əlaqələrini XVI əsrdə Papa XIII Qriqorius Vatikanda erməni katolik rahiblər heyətinin qurulması münasibəti ilə verdiyi imtiyaz bullasında (fərmanında) belə mədh edirdi: *"Erməni millətinin kilsəyə və xristian idarəçilərinə göstərdiyi xidmətlər içərisində elə bir xidmət vardır ki, daim yaddaşlarda saxlanılmalıdır. Xristian şahzadələri və xristian orduları Hz. İsanın məzarını yenidən geri almaq üçün getdikləri vaxt xristianlara heç bir millət ermənilər qədər dərhal və sevinclə köməyə tələsməmişdir. Ermənilər hər vəchlə öz dəyərli adamlarını xaçlıların əmrinə vermiş, heyvan (at), yemək, içmək, istirahətgah, yatacaq yer təmin etdikləri kimi, öz tövsiyələrini və silah yardımlarını da əsirgəməmişlər. Bütün gücləri ilə yorulmadan qəhrəmancasına və sədaqətlə bu müqəddəs müharibələrdə xristianlara yardım etmişlər. Xaçlı ordularına bələdçilik edərək yolu göstərmək, ən əlverişli yolu seçmək, türk qalalarının vəziyyətini açıqlamaq, türk ordusunun vurucu gücünün sayını və hərbi texnikasını öyrənib bildirmək ermənilərin sədaqətinin bariz nümunəsidir. Buna türklərə qarşı frankları qorumaq üçün müharibəyə qoşulmaları və türkləri öldürmələri də daxildir... Sonra ermənilər türklərin boyunduruğu altına girmək məcburiyyətində qalmış, onların*

*əsiri olmuşlar. Böyük acıyla və içimiz yanaraq bildiririk ki, heç bir hakimiyyət, heç bir təzyiq onları (ermənilər) bu dərəcə yaralamamış, xristian kilsəsinə, dininə, ibadət zərurətinə bu dərəcə həqarət edilməmişdir. Bütün çətinliklərə baxmayaraq, ermənilər hər cür fəlakətə sinə gərmişlər"* [21, s. 33-35].

Fransızlarla ermənilər arasında kökü səlib yürüşlərinə qədər uzanan yaxınlıq və səmimi münasibətlər Birinci Dünya müharibəsində, xüsusilə Qurtuluş Savaşında da davam etmiş, fransız zabitlərinin komandanlığı altında təşkilatlanan ermənilər türklərə qarşı cinayət və qətllər törətmişdilər [22, s. 540-541].

Göründüyü kimi, keçmişdən miras qalan dini, milli, psixoloji amillər Fransanın Ermənistana yaxınlaşmasında və türklərə qarşı nifrət hissinin güclənməsində əsas rol oynamışdır. Fransa ümumiyyətlə, Avropada Ermənistanın xüsusi olaraq etimad bəslədiyi və aparıcı dövlətlər arasında yeganə ölkədir ki, erməni lobbisinin maraqlarını ən yüksək səviyyədə təmin edir. Fransa 29 yanvar 2001-ci il tarixdə qondarma erməni soyqırımını tanımış [20, s. 191], 1915-ci il hadisələri ilə bağlı erməni iddialarının rəddinin cinayət hesab edilməsini nəzərdə tutan qanun təklifini də 2006-cı ildə tətbiq etmişdir. 22 dekabr 2011-ci ildə isə Fransa Milli Məclisi *"Fransa qanunları tərəfindən tanınan soyqırımlarını rədd edənlər bir il həbs və 45 min avro ilə cəzalandırılacaqlar"* şəklindəki müzakirəyə çıxarılan qanun təklifi səs çoxluğu ilə qəbul edilmişdir [31].

Belə bir məsələ daha çox Fransanın Türkiyə ilə tarixdən gələn soyuq münasibətləri və Türkiyənin Avropa İttifaqına üzvlük istəyi ilə əlaqəlidir [24, s. 59]. Diqqəti çəkən əsas məsələ ziddiyyətin türklərin avropalı olmamasından, eyni zamanda milli kimliyindən və dinindən qaynaqlanması olsa da, Fransa guya Türkiyəyə işıq yolu qoyaraq, onun Avropa İttifaqına üzv ola bilməsi üçün qondarma soyqırımını etiraf etməsinin və tanımasının vacib olduğunu hər dəfə təkrarlayır [24, s. 60]. Şübhəsiz ki, belə bir addım Türkiyənin mövcud tələbləri rədd edəcəyi və önə sürülən şərtlərlə əsla razılaşmayacağı nəzərə alınaraq atılmışdır.

Fransanın sabiq prezidenti Nikola Sarkozi *"Etiraflarım"* adlı kitabında qeyd edir: *"...Türkiyənin Avropa İttifaqına daxil olması istiqamətində yeritdiyi siyasət və göstərdiyi canfəşanlıq şəxsən mənə çox tərs gəlir. Bu fikrin altında yatan strateji hesablamaları görür və başa düşürəm. Türkiyənin mövcud istəkləri bu dövrlərdə qurulan strateji ortaqlıqla gerçəkləşə bilər. Ancaq torpaqlarının çox cüzi bir hissəsi Avropada yerləşən, eyni zamanda müsəlman olan Türkiyənin 99%-i xristian avropalılardan ibarət Avropa İttifaqına daxil olmaq istəyini anlaya bilmirəm... Avropa İttifaqının Türkiyənin erməni soyqırımının tanınması yönündə ciddi addımlar atmağa cəsarət etmədiyini də anlaya bilmirəm. Türkiyə əgər Avropa İttifaqına daxil olmaqda qərarlıdırsa, mütləq və mütləq erməni soyqırımını tanımalıdır..."* [30, s. 192].

Türkiyəni "erməni soyqırımı"nda günahlandıran Fransa nədənsə Əlcəzairdə törətdiyi cinayətləri görməzdən gəlir. Klassik müstəmləkə ölkəsi olan Fransanın XVII-XX əsrlərdə planetin bir çox bölgələrində ərazilər zəbt etdiyi tarixdən məlumdur. Şimali, Mərkəzi Amerika, Asiya, Asiya Sakit Okean, Afrikada Fransa dövlətinin müstəmləkəsi olan böyük ərazilər mövcud olub. Fransanın müstəmləkə işğalları zamanı ən böyük ölçüdə insan qırğınları Afrika qitəsində baş verib. Afrikanın demək olar ki, yarısı XIX əsrdə fransızlar tərəfindən işğal olunub, müqavimət göstərən 10 minlərlə insan öldürülüb: Benin, Çad, Cibuti, Qabon, Qana, Kamerun, Komor adaları, Mavritaniya, Niger, Seneqal, Tunis, o cümlə-dən Suriya, Livan və nəhayət, Əlcəzair.

Tarixi məlumatlara görə, Fransa tərəfindən Əlcəzairdə 1830-cu ilə qədər 4 milyon nəfərdən çox, 1890-cı ildə isə 2 milyon 500 min insan qətlə yetirilmişdir. Heç bir insani mahiyyət daşımayan bu soyqırımlarda sadə müsəlmanların yalnız bir qurtuluş imkanı var idi: ərəb kimliyindən və İslamdan imtina edərək Fransa təbəəliyini qəbul etmək. Bu Fransanın mədəni soyqırım siyasəti idi. Xalqa ana dilində danışmaq, yazmaq, adət-ənənlərini təbliğ etmək qadağan edilmişdi. Silah gəzdirən, siyasi xarakterli söhbətlər, toplantı keçirmək

istəyənlər yerindəcə güllələnirdi. Bu ölkədə bir neçə dəfə baş verən xalq üsyanları hər dəfə güclü ordu və texnikaya sahib Fransa qüvvələri tərəfindən amansızlıqla yatırılıb. Çox da uzaq olmayan tarixdə, İkinci Dünya müharibəsindən sonra Əlcəzairdə baş verən müstəqillik hərəkatı Fransa ordusu tərəfindən qanla boğulub. 1954-cü ilin noyabrından 1962-ci ilin martına qədər davam edən milli azadlıq savaşı zamanı bütün mütərəqqi dünyanın gözü qarşısında Fransa 1,5 milyon əlcəzairlini qətlə yetirib. Bu, təxminən hər gün 550 nəfərdən çox insanın öldürülməsi deməkdir. Fransanın ilk nüvə silahı sınaqları da məhz Əlcəzairdə keçirilib [bu barədə ətraflı bax: 15; 17]. Lakin Fransa özünün kirli keçmişinin üstünü örtmək üçün Şarl de Qoll dövründə 1962-ci ildə qəbul etdiyi bir qanunla bu tarixdən əvvəl Şimali Afrikada baş vermiş hadisələrin qəti şəkildə mühakimə edilməyəcəyini hökm altına almışdır. 25 iyul 2005-ci il tarixdə isə Şimali Afrikada baş verən hadisələrə bəraət qazandıraraq yeni bir qanun qəbul etmişdir [18]. Fransa Əlcəzairdə törədilən cinayətlərin soyqırımı olduğunu ümumiyyətlə, qəbul etmir. Fransaya görə, bu ölkədə cərəyan etmiş hadisələr etnik, milli, dini amilləri özündə ehtiva edən hərəkət olmayıb, sadəcə siyasi xarakterli bir hərəkətdir [1].

"8 May 1945 Dərnəyi"nin sabiq sədrlərindən olan Əlcəzairin məşhur tarixçisi Məhəmməd Əl-Korso Əlcəzairdə törədilmiş olan cinayətlərin soyqırımı olduğunu, Fransanın başqa ölkələrə dərs vermək əvəzinə öz tarixinə göz ataraq dərs almasının vacib olduğunu qeyd edərək yazır ki, başqalarının cinayətlərini qanun ilə tanıyıb cəzalandırmaq əvəzinə özünün törətmiş olduğu soyqırımını etiraf etməsi daha uyğundur. Sarkozi digər dövlətləri öz tarixləri ilə üzləşməyə dəvət edir, lakin öz tarixinə baxmaq üçün lazımi cəsarəti göstərmir, əksinə öz müstəmləkəçi keçmişinə aid soyqırımları görməzdən gəlir və yeni bir tarix yazmaq istəyir [11].

Fransa Əlcəzair soyqırımından bilavasitə məsuliyyət daşıdığı halda, antitürk xarakterli qondarma erməni soyqırımı məsələsini daim xüsusi canfəşanlıqla gündəmə gətirir. Fransanın ermənipərəst mövqeyi öz növbəsində digər türksoylu dövlət olan Azərbaycana da təsir etmişdir. Vaxtilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində vasitəçi missiyasını öz üzərinə götürən ATƏT-in Minsk Qrupunun daimi üzvlərindən biri kimi Fransanın bu münaqişənin nizama salınması istiqamətində yeritdiyi siyasət və tutduğu mövqe deyilənləri bir daha təsdiq edir. Rəsmi dövlət səviyyəsində hər il qondarma erməni soyqırımı məsələsini gündəmə gətirən və türkləri ittiham edən bu dövlətin obyektiv mövqedən çıxış edərək, münaqişənin öz real həllini tapması üçün neytral siyasət yeritməsini düşünmək, eyni zamanda türksoylu Azərbaycan torpaqlarını işğal edən Ermənistandan zəbt etdiyi torpaqlardan çıxmağı tələb etməsini gözləmək məntiqli görünmürdü.

**Fransanın İkinci Qarabağ müharibəsində erməniyönümlü siyasət yeritməsinin pərdə arxası məqamları: Fransa ilə Türkiyə arasında nüfuz savaşı və geosiyasi rəqabət.**

İkinci Qarabağ müharibəsi dövründə Fransa birmənalı olaraq Ermənistanın yanında olduğunu açıq şəkildə nümayiş etdirdi. Yuxarıda da qeyd olunduğu kimi, Ermənistan düşdüyü vəziyyət qarşısında ənənəvi psixologiyasından çıxış edərək, Azərbaycanda guya Suriyadan gətirilən muzdlu döyüşçülərin, xüsusilə cihadçı qrupların olması ilə bağlı saxta məlumatlar yayır, Fransa da ermənilərin bu şantaj dolu yalanlarını araşdırmadan və ya araşdırmaq istəmədən erməni böhtanlarını qeyd-şərtsiz dəstəkləyirdi. Hətta məsələyə dini don geydirərək problemin çox ciddi olduğunu və Avropa Şurasının müzakirəsinə çıxarılmasının vacibliyini bildirərək açıq şəkildə ermənipərəst mövqeyini ortaya qoydu. Bu yanaşma vasitəçilik missiyasını öhdəsinə götürən Fransanın tərəfsizlik siyasətinə tamamilə zidd idi. Subyektiv dəyərləndirmələrimizə görə, Fransanın Azərbaycan qarşısında Ermənistanı açıq şəkildə dəstəkləməsinin ən önəmli səbəblərindən biri onun Türkiyə ilə geosiyasi maraqlarının Yaxın Şərq, Aralıq dənizi və Afrikada toqquşması ilə bağlıdır. Türkiyənin Suriya hərəkatı qarşısında olan Fransa Aralıq dənizi və Liviya məsələsində eyni mövqeyini ortaya qoymuşdur. Fransanın

Aralıq dənizindəki fəaliyyəti keçmişə dayanır. Fransa günümüzdə də Liviya üzərindəki məqsədlərini reallaşdırmağı və Aralıq dənizindəki güc rəqabətində söz sahibi olmağı hədəfləyir.

Bu bir reallqıdır ki, böyük güc olmağın yolu enerji mənbələrinə nəzarət etməkdən keçir. Şərqi Aralıq dənizində trilyonlarla dollar dəyərində böyük karbohidrogen ehtiyatları və neft-qaz yataqlarının kəşf edilməsi istər-istəməz iri dövlətləri qarşı-qarşıya gətirmişdir. Bu baxımdan Yaxın Şərq və Şərqi Aralıq dənizini "qurdlar süfrəsi" kimi xarakterizə etmək olar. Bu süfrədə hər bir hegemon və regional dövlət öz gücünə görə yer almaq istəyir. Digər bir ifadə ilə, bu süfrə qlobal və regional olmaqla geosiyasi bir süfrədir. Belə bir süfrədə Fransa ilə Türkiyənin də geosiyasi maraqları toqquşmaqdadır. Aralıq dənizindəki layihələrdə dəstəklənməyən və tədricən Yaxın Şərqdən təcrid edilən Fransa Liviya siyasətinin qarşısında da Türkiyəni ən böyük maneə olaraq görür. Heç təsadüfi deyildir ki, türk və fransız donanmalarına aid iki gəminin qarşı-qarşıya gəlməsi iki ölkə arasındakı gərginliyin artmasına səbəb olmuşdur. Kipr yaxınlığında gaz axtarışı da NATO üzvü olan Türkiyə ilə Fransanı üz-üzə qoymuşdur. Adanın yaxınlığında kəşf edilən təbii gaz rezervlərinin istismarına Türkiyə ilə Şimali Kipr Respublikası daxil edilmədiyindən, Türkiyə öz növbəsində Liviya ilə dəniz səlahiyyət sahəsi razılaşmasına vararaq Şərqi Aralıq dənizində qazma fəaliyyətinə başladı. Bu vəziyyət isə rəsmi Ankara ilə Afina arasındakı gərginliyi artırdı və Fransa Yunanıstanın yanında yer aldı. İkinci Qarabağ müharibəsi başlayanda Fransa dərhal tərəfləri atəşkəsə dəvət edərək, Türkiyənin guya Azərbaycanı Qarabağı ələ keçirməyə təşviq edən hərəkətlərindən olduqca narahat olduğunu bildirdi. Fransanın bu bəyanatında erməni diasporunun təsiri olsa da, bu reaksiyanın əsl səbəbi Fransanın Liviya və Şərqi Aralıq dənizində Türkiyə ilə apardığı rəqabət və mübarizədir [27].

Türkiyə ilə Fransa arasındakı Liviya böhranını daha dərindən anlayıb təhlil edə bilmək üçün problemin Liviya kontekstində deyil, Afrika qitəsi prizmasında mübarizə və rəqabətin bir parçası olduğunu görmək lazım gəlir. Əslində Liviyadakı toqquşma Türkiyə-Fransa rəqabətlərindəki aysberqin görünən tərəfidir. Aysberqin görünməyən tərəfində isə Türkiyənin yeritdiyi Afrika siyasətinin Fransanın strateji mənfəətləri ilə toqquşması dayanır. Məlum olduğu kimi, Afrika qitəsinin Fransa baxımından böyük siyasi, iqtisadi, sosial və mədəni əhəmiyyəti vardır. XIX əsrdə Rusiya ilə İngiltərə arasında Asiya hakimiyyəti uğrundakı rəqabəti ifadə edən **"Böyük Oyun – Great Game"**in digər bir forması Afrikaya hakim olmaq istəyən Fransa, İngiltərə və Almaniya kimi güclü dövlətlər arasında cərəyan etmişdir [9]. Afrikanın bölüşdürülməsində əsas rol oynayan və 1885-ci ildə Berlində təşkil olunan konfransda imzalanan "Berlin Ümumi Sənədi" ilə Fransa Afrikanın ən önəmli müstəmləkəçi dövlətlərindən birinə çevrilmişdir [5, s. 420]. Hər nə qədər İkinci Dünya müharibəsindən sonra dünyada başlayan dekolonizasiya siyasəti özünü Afrika qitəsində də hiss etdirsə də, eyni zamanda müstəmləkə torpaqlarının əsas hissəsi müstəqilliyinə qovuşsa da, Fransa hegemon olduğu torpaqlardakı siyasi, iqtisadi və mədəni üstünlüyünü itirmək istəməmiş, əksinə, təsirini daha da gücləndirmişdir. Fransa 1961-ci ildən etibarən 14 Afrika ölkəsinin – ***Benin, Burkina Faso, Qvineya-Bisau, Fildişi Sahili, Mali, Niger, Seneqal, Toqo, Kamerun, Mərkəzi Afrika Respublikası Çad, Konqo Respublikası, Ekvator Qvineyası və Qabon*** – milli rezervlərini əlində saxlayır [26].

Afrika ölkələri milli valyuta ehtiyatlarını Fransa Mərkəzi Bankına yatırmaq məcburiyyətindədirlər. Fransa xəzinəsi Afrikadan illik təxminən 500 milyard dollar qazanc əldə edir. Məhz buna görə də Fransa müstəmləkəçi valyuta sistemini əldən vermək istəmir. Bu sistemə qarşı çıxan afrikalı liderlər ya öldürülmüş, ya da çevriliş yolu ilə vəzifələrindən uzaqlaşdırılmışlar. İtaət edənlər isə Fransa tərəfindən mükafatlandırılmaqdadır. Afrikadan külli miqdarda qazanc əldə edən Fransa bu yolda qarşısına çıxan bütün dövlətlərin kənarlaşdırılması üçün əlindən gələni edir. Fransanın sabiq prezidentlərindən Jak Şirakın

Afrikadakı fransız müstəmləkələri barəsində dedikləri olduqca düşündürücüdür: ***"Əgər Afrika olmasaydı, Fransa güc sırasında 23-cü yerə düşərdi".*** Heç təsadüfi deyildir ki, onun sələfi Fransua Mitteran da 1957-ci ildə ***"Afrikasız Fransanın XXI əsrdə heç bir tarixi olmaz"***, – deyərək həqiqətləri etiraf etmişdir [25].

Hal-hazırda da Afrika ölkələri Fransaya müstəmləkə borcunu ödəmək məcburiyyətindədirlər. Ədalətli olmayan bu sistemin Avropa İttifaqı tərəfindən dəfələrlə qınanmasına baxmayaraq, Fransanın hər il Afrikadan təxminən 500 milyard dollar təmin etdiyi bu müstəmləkə sistemi olmadan ayaqda dura bilməyəcəyi açıq-aydın ortadadır. Bu baxımdan Fransa Afrika kimi tarixi, siyasi, iqtisadi və mədəni baxımdan özündən asılı vəziyyətə saldığı bölgələrdə Türkiyə kimi fərqli bir geosiyasi oyunçunun öz təsir dairəsini genişləndirməsini tamamilə öz mənafeyinə təhlükə olaraq dəyərləndirir. Göründüyü kimi, Türkiyənin yeritdiyi Afrika və Yaxın Şərq siyasəti Fransanın strateji və iqtisadi maraqları ilə toqquşur. Bu səbəbdən Türkiyə tərəfindən dəstəklənən və türk sivilizasiyasının daşıyıcılarından biri olan Azərbaycan qarşısında Fransa açıq şəkildə Ermənistanı dəstəkləməkdən çəkinməmiş, hətta qondarma Dağlıq Qarabağ Respublikasının tanınması istiqamətində ciddi fəallıq göstərmişdir.

**Fransanın öz ağırlığını qoyma istiqmətində göstərdiyi təşəbbüslər və siyasi müdaxiləsi.**

Regionda siyasi konyunkturanın yaranması ilə Azərbaycanın Ermənistanın işğalı altında olan torpaqlarında irəliləməsi və nəzarəti ələ keçirdiyi bir zamanda digər dövlətlər kimi Fransa da müdaxilə etməyə çalışaraq öz ağırlığını qoymaq istədi. 27 sentyabrda başlayan şiddətli müharibənin 13-cü günündə isə Rusiyanın vasitəçiliyi ilə tərəflər atəşkəs barəsində uzlaşdırılmağa çalışıldı. Oktyabrın 10-da humanitar məqsədlərlə hərbi əsirlər, digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi ilə bağlı humanitar atəşkəs elan olundu [7]. Lakin toplantının ardından 24 saat (və ya daha az) belə keçmədən Gəncə, Mingəçevir, Bərdə, Goranboy, Tərtər və s. şəhər, rayon və kəndlərə Ermənistan ərazisindən raketlər atıldı. Xüsusilə mülki əhalinin hədəf alındığı, çox sayda insanın öldüyü və yaralandığı ikinci böyük şəhər olan Gəncənin vurulması erməni terrorunun yeni bir təzahürü oldu. Bu hal Ermənistanın sivillərə terror cinayətləri törədəcək qədər zavallı bir vəziyyətə düşməsi şəklində də xarakterizə oluna bilər.

18 oktyabrda Fransanın vasitəçiliyi ilə tərəflər arasında bir daha atəşkəs elan edildi, lakin üstündən 2 dəqiqə belə keçmədən Ermənistan ordusu tərəfindən növbəti dəfə pozuldu [8]. Gərginliyin artmasından sonra bu dəfə ABŞ-ın dövlət katibi Mayk Pompeo da hər iki ölkənin Xarici İşlər nazirlərini öz ölkəsinə dəvət etdi və 23 oktyabrda nazirlərlə ayrı-ayrılıqda görüş keçirdi [28]. Əlbəttə ki, ABŞ-ın da məsələyə müdaxilə edəcəyi əslində gözlənilən bir vəziyyət idi. Lakin bu görüşmədən sonra 26 oktyabrda üçüncü dəfə atəşkəsin elan edilməsindən sonra üstündən 5 dəqiqə keçmədən Ermənistan tərəfindən bir daha pozuldu [13]. Döyüş meydanında Azərbaycan Ordusu qarşısında müqavimət göstərə bilməyən Ermənistan yenə də mülki əhalini hədəf seçdi. Oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdədə dinc əhaliyə qarşı "Smerç" tipli yaylım atəşli reaktiv sistemləri ilə raket zərbələri nəticəsində 21 nəfər həlak oldu, 70-dən çox mülki vətəndaş ağır yaralandı. Atəşkəsi dəfələrlə pozmasına baxmayaraq, ballistik raketlərlə sivillərə hücum edən, aralarında uşaqların da olduğu çox sayda insanları qətlə yetirən Ermənistanın törətdiyi cinayətlər ATƏT-in Minsk Qrupunun digər həmsədrləri kimi Fransa tərəfindən də qınanmadı. Bunun əvəzinə müharibənin dayandırılması, silahların susması, dərhal müzakirələrə başlanması kimi ənənəvi ifadələrə yer verildi. Əgər Fransa həqiqətən müharibədən narahat idisə, insan ölümünə səbəb olan bu vəziyyətdən gərgin hisslər keçirirdisə, ədalətin bərqərar olmasını istəyirdisə, işğalçı tərəf olan Ermənistanın BMT qətnamələrinə əməl edərək dərhal işğal etdiyi əraziləri

boşaltmasını təmin etməli, lazım gələrsə təzyiq göstərməliydi. Lakin bunu etmədi. Ermənilərin təyini-müqəddəratı XX əsrin əvvəllərində gerçəkləşdirilib və onların Ermənistan adlı bir dövləti mövcuddur. Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin qurulması isə əsla mümkün deyil. Əgər ermənilər yaşadıqları hər yerdə təyini-müqəddərat məsələsini qəbul etdirməyə çalışsalar, o zaman dünyada çox sayda erməni dövləti yaranar. Əgər Minsk üçlüsündən biri olan olan Fransa həqiqətən də Ermənistan üçün "self-determination" prinsipinin reallaşmasını istəyirsə, çox sayda ermənilərin yaşadığı Marselə muxtariyyət statusu verməsi daha məqbul sayıla bilər.

Fransa və digər vasitəçilərin işğalçı dövlət ilə işğala məruz qalan dövlət arasında ədalətli seçim etməmələri və işğalçı dövləti dəstəkləyən addımları Ermənistanın təcavüzkar siyasətinin daha da şiddətlənməsi ilə nəticələndi. Fransanın türk düşmənçiliyi onu Ermənistana yaxınlaşdıran əsas amildir. Heç təsadüfi deyildir ki, Fransa bu məsələdə öz real münasibətini 19 oktyabr 2020-ci il tarixli BMT TŞ-nın münaqişə ilə bağlı gerçəkləşdirilən qapalı iclasında nümayiş etdirdi. Bu iclasdan sonra Fransa Rusiya ilə birgə bəyanatın layihəsini hazırladı və razılaşdırılması üçün üzv ölkələr arasında yaydı, lakin bəyanat layihəsində Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad öz əksini tapmadı. Bu bəyanat beynəlxalq hüququn ən önəmli sütunlarından olan ərazi bütövlüyü prinsipinin və BMT Təhlükəsizlik Şurasının qərarlarının heçə sayılması mənasına gəlir. Əsl məqsəd 822, 853, 874 ve 884 saylı qərarları tarixə gömməklə unutdurmaq, Ermənistan lehinə yeni qərarlar qəbul etmək və Azərbaycanın işğal altında olan torpaqlarını qurtarmaq təşəbbüsünə mane olmaq idi. Lakin Təhlükəsizlik Şurasında təmsil olunan Qoşulmama Hərəkatına üzv olan 7 dövlət – ***İndoneziya, Niger, Vyetnam, Tunis, Cənubi Afrika, Dominikan Respublikası, Sent Vinsent və Qrenadin*** – layihəyə Təhlükəsizlik Şurasının məlum qətnamələrinə istinadın daxil edilməsinin vacibliyini təklif etdilər. Fransa Rusiya ilə birlikdə bunun qəbul edilməz olduğunu bildirsələr də, Qoşulmama Hərəkatına üzv olan dövlətlərin təkidli və prinsipial mövqeyi nəticəsində bu bəyanat geri götürüldü [10].

Göründüyü kimi, Fransa kimi digər böyük dövlətlərin BMT TŞ-da daimi üzv kimi təmsil olunmaları bu qurumun yalnız siyasi maraqlara xidmət etdiyini, beynəlxalq hüququn icraçısı deyil, pozucusu olduğunu göstərir. Fransa tərəfsizliyi bir tərəfə ataraq, əvvəllər olduğu kimi, yenidən tərəf tutmağa davam etdi və Ermənistanı açıq şəkildə dəstəklədi.

İnkaredilməz bir faktdır ki, Fransa dünyada irqçi, islamofob, antitürk siyasət həyata keçirən dövlətlərin başında gəlir. İkinci Qarabağ müharibəsi ilə ölkəmizin əldə etdiyi tarixi Zəfərdən sonra anti-Azərbaycan fəaliyyətini daha da intensivləşdirib, beynəlxalq hüquq normalarını və və prinsiplərini pozaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı ədalətsiz və qərəzli addımlar atır. Fransa Cənubi Qafqazda daimi sabitliyin təmin olunması istiqamətində sülhə maneə olan başlıca dövlətlərdən biri kimi regionda vəziyyəti gərginləşdirmək üçün Ermənistana silah-sursat sataraq müharibə fitilini alovlandırmağa çalışır, rəsmi İrəvanı revanşizmə hazırlayır. Afrikadakı siyasətinin uğursuzluğa düçar olmasından sonra Fransa Cənubi Qfqazda sülhmərmalı imic formalaşdırmağa təşəbbüs edir, pozucu fəaliyyətindən əl çəkməyərək Azərbaycana qarşı düşmənçilik siyasətini demokratiya, humanizm pərdəsi altında ört-basdır etməyə çalışır. Reallıq budur ki, Afrikanı, ada dövlətlərini sömürən, hal-hazırda Afrikada ciddi problemlərlə üzləşərək ağır vəziyyətə düşən Fransa ənənəvi neokolonialist siyasət yeridərək Ermənistan kimi oyuncaq dövlətdən istifadə edərək yeni müstəmləkələr axtarışına çıxıb. Bunu da gerçəkləşdirmək üçün qarayaxma kampaniyalarını intensivləşdirir [bu barədə ətraflı bax: 32; 33]. Bu cür fəaliyyətlər Azərbaycanın COP29 kimi mühüm beynəlxalq tədbirə evsahibliyi etdiyi bir dövrdə də bariz şəkildə özünü göstərdi. Ani-Azərbaycan siyasət yeridərək beynəlxalq ictimaiyyəti aldatmağa cəhd edən,

Azərbaycanı aqressiv ritorikada təqsirləndirməyə çalışan Fransa anlamaq istəmir ki, Azərbaycan heç bir şəkildə hər hansı bir dövlətin onunla təhdid dili ilə danışmasına icazə verməz. Azərbaycan nəinki Ermənistanı susdurmağa, öz milli təhlükəsizliyinin qorunması, sərhədlərinin qorunması istiqamətində rəsmi İrəvanın revanşist fəaliyyətlərini dəstəkləyən havdarlarına da cavab verməyə qadir bir dövlətdir.

## *Nəticə*

Ümumiyyətlə, beynəlxalq siyasətdəki real vəziyyət təhlil edilərkən belə bir məqam ortaya çıxır: hansısa davranış və ya hərəkət supergüclərin xeyrinə və ya zərərinədirsə, onun beynəlxalq hüquqa uyğun olub-olmaması arxa plana keçir və həmin güclər özlərinə sərf edən müvafiq addımı atırlar. Yəni böyük güclər özlərini "istisna faktor" kimi görürlər. Bu vəziyyəti Fransaya da şamil etmək mümkündür. Düzdür, Azərbaycanın tarixi qələbəsindən sonra Cənubi Qafqazda yeni geosiyasi reallığın yaranmasından sonra Fransa oyunkənar vəziyyətə düşsə də, bu dövlət fürsət tapmağa çalışaraq öz ağırlığını qoymaq üçün əlindən gələni edir. Qeyd olunduğu kimi, artıq Cənubi Qafqazda yeni geosiyasi reallıq yaranıb. Fransa bu reallığı qəbul etməli, tərəfli siyasətindən əl çəkərək obyektiv mövqedən çıxış etməli, regionda sabitliyin qorunmasına töhfə verə bilməlidir.

## ƏDƏBİYYAT


1. Ahmet Cemal Ertürk. Cezayir-Fransa ilişkilerinde soykırım tartışması. http://www.bilgesam.org/tr/index.php?option=com_content&view=article&id=988:cezayir-fransa-likilerinde-soykrm-tartmas&catid=80:analizler-afrika&Itemid=141
2. Akgönül Samim. Fransa ermeni toplumu ve Türkiye: propaganda ve lobicilik // Ermeni Araştırmaları Dergisi, 2002, sayı:5, s. 222-251.
3. Ayan Ergin. Ermeni-haçlı işbirlikleri // Ermeni Araştırmaları Dergisi, 2007, sayı:26, s. 49-73.
4. Arif Emin (Şıxəliyev). Erməni iddialarının siyasi mahiyyəti. Bakı: Nurlan, 2006, 187 s.
5. Armaoğlu Fahir. 19. Yüzyıl siyasi tarihi. Ankara: Türk Tarih Kurumu basımevi, 1997, 821 s.
6. Ahmet Cemal Ertürk. Cezayir-Fransa ilişkilerinde soykırım tartışması. http://www.bilgesam.org/tr/index.php?option=com_content&view=article&id=988:cezayir-fransa-likilerinde-soykrm-tartmas&catid=80:analizler-afrika&Itemid=141
7. Azərbaycan, Rusiya və Ermənistanın XİN başçıları bəyanat qəbul ediblər. https://report.az/dagliq-qarabag-munaqishesi/azerbaycan-ve-ermenistan-xin-bascilarinin-ucterefli-gorusu-basa-catdi/
8. Azərbaycan və Ermənistan humanitar atəşkəs barədə razılığa gəldi. https://modern.az/az/news/260857
9. Cemil Ömer Kızılhan, "Afrika ekseninde Türkiye-Fransa ilişkileri". https://21yyte.org/tr/merkezler/bolgesel-arastirma-merkezleri/avrupa-birligi-arastirmalari-merkezi/afrika-ekseninde-turkiye-fransa-i-liskileri
10. Elçin Əhmədov. "Azərbaycanın diplomatik, hərbi uğurları və böyük güclərin ermənipərəst siyasəti". http://newtimes.az/az/organisations/6883/
11. Engin Akgürbüz. Fransa'nın Cezayir'de yaptığı soykırımdır. http://dunya.milliyet.com.tr/-fransa-nin-cezayir-de-yaptigi-soykirim-dir/dunya/dunyadetay/25.12.2011/1480243/default.htm
12. Erer Raşid. Türklere karşı Haçlı seferleri. İstanbul: Kaknüs, 2002, 184 s.
13. Ermənistan-Azərbaycan arasında daimi atəşkəs yalnız BMT qətnamələrinin şərtləri daxilində mümkündür. https://fed.az/az/qarabag/turkiye-xin-ermenistan-azerbaycan-arasinda-daimi-ateskes-yalniz-bmt-qetnamelerinin-sertleri-daxilinde-mumkundur-91600

14. Ermenistan PKK'lı teröristleri Azerbaycan cephe hattında kullanıyor. https://www.trthaber.com/haber/dunya/ermenistan-pkkli-teroristleri-azerbaycan-cephe-hattinda-kullaniyor-518306.html
15. Fransa: soyqırımı, müstəmləkə, qətllər... http://www.milli.az/ news/world/93951.html
16. Fransa Cumhurbaşkanı Macron: cihatçılar Gaziantep üzerinden Karabağ'a gitti, elimizde kanıtlar var. https://tr.euronews.com/2020/10/01/fransa-cumhurbaskan-macron-cihatc-lar-gaziantep-uzerinden-karabag-a-gitti-elimizde-kan-tla
17. Fransa'nın Soykırım, Sömürge Tarihi ve Cezayir Katliamı. http://www.haberform.com/haber/fransanin-soykirim-somurge-tarihi-fransa-somurgeciligi-fransiz-katliamlari-cezay-91276.htm
18. Gazeta.ru: Зачем Ереван затеял интриги на Ближнем Востоке, начав игру «не своей лиге»? https://1news.az/news/gazeta-ru-zachem-erevan-zateyal-intrigi-na-blizhnem-vostoke-nachav-igru-ne-v-svoey-lige
19. İbrahim Çevik. Soykırımı inkar yasasının saklanan yüzü. http://www.turksam.org/tr/a2592.html
20. Karagül Soner. Avrupa Birliği ve ermeni sorunu // Ermeni Araştırmaları Dergisi, 2003, sayı: 8, s. 177-196.
21. Kaşkarlı Mehlika Aktok. Haçlı seferleri ve ermeniler / Türk-ermeni ilişkileri. 21. yüzyıla girerken tarihe dostça bakış. Ankara: AKDTYK Atatürk Araştırma Merkezi, 2000, s. 29-36.
22. Kırpık Güray. Birinci haçlı seferinde ve Kurtuluş Savaşı'nda türk-ermeni-fransız münasebetlerinin benzer yönleri // Turkish Studies, International Periodical for the Languages, Literature and History of Turkish or Turkic, 2008, Volume ¾, s. 531-548.
23. Küçük Abdurrahman. Ermeni kilisesi ve türkler. Ankara: Ocak yayınları, 1997, 312 s.
24. Lütem Ömer E. Olaylar ve yorumlar // Ermeni Araştırmaları Dergisi, 2004–2005, sayı:16-17, s. 7-81.
25. Mavis Enyan. "South Africa to build nuclear power for cecurity and energy purposes". https://thepeoplesnewsafrica.com
26. Mustafa Efe. "Afrikada Fransa kabusu – II: Sömürgecilik". https://www.aa.com.tr/tr/analiz/afrika-da-fransa-kâbusu-ii-yeni-somurgecilik/1726100
27. Okan Yeşilot. "Fransa-Türkiye ilişkilerinde Dağlık Karabağ gerginliği". https://www.aa.com.tr/tr/analiz/fransa-turkiye-iliskilerinde-daglik-karabag-gerginligi/2061558
28. Orly saldırısı davası, 19 şubat – 2 mart 1985, şahit ve avukat beyanları. Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi yayınları, 1985, yayın № 544, 86 s.
29. Pompeo Azərbaycan ve Ermənistan Xarici İşlər nazirləri ilə görüşdü. www.amerikaninsesi.org/a/pompeo-azərbaycan-və-ermənistan-xarici-işlər-nazirləri-ilə-görüşüb/5633126.html
30. Sarkozy Nicolas. İtiraflarım. İstanbul: Karakutu yayınları, 2008, 272 s.
31. Şenol Kantarcı. Fransa'nın yeni Ermeni kartı: Türkiye-Fransa ilişkilerinde kriz. http://www.turksam.org/tr/a2251.html
32. Rəşad Baxşəliyev. Fransa Ermənistanı niyə silahlandırır? https://www.azerbaijan-news.az/az/posts/detail/fransa-ermenistani-niye-silahlandirir-1719007009
33. Yasəmən Musayeva. Fransanın qərəzli siyasəti Ermənistana baha başa gələcək. https://www.azerbaijan-news.az/az/posts/detail/fransanin-qerezli-siyaseti-ermenistana-baha-basa-gelecek-1710190497

УДК 94(479.24)

*Эмин Ариф оглы Шихалиев*
*Нахичеванский Государственный Университет*

РОЛЬ, ПОЗИЦИЯ И ПЛАНЫ ФРАНЦИИ ВО ВРЕМЯ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ И ПОСЛЕВОЕННЫЙ ПЕРИОД
*РЕЗЮМЕ*

*Ключевые слова:* Вторая Карабахская война, послевоенный период, Франция, Армения, Азербайджан, геополитическая конкуренция

Привлекает внимание позиция Франции в армяно-азербайджанских отношениях и во Второй Карабахской войне. Позиция Франции, как одного из сопредседателей Минской группы ОБСЕ, всегда была для Азербайджана чувствительной. Однако Франция каждый раз занимала в армяно-азербайджанских отношениях откровенно проармянскую позицию. Не только во Второй Карабахской войне, но и на фоне новых геополитических реалий на Южном Кавказе в послевоенный период Франция продолжает свою прежнюю политику. Несомненно, такой подход полностью противоречит политике нейтралитета «миролюбивой» Франции как одного из пяти постоянных членов Совета Безопасности ООН. В статье анализируется роль, позиция и планы Франции во время Второй Карабахской войны и в послевоенный период.

UDC94(479.24)

*Emin Arif Shikhaliyev*
*Nakhchivan State University*

ROLE, POSITION AND PLANS OF FRANCE DURING THE SECOND KARABAKH WAR AND POST-WAR PERIOD
*SUMMARY*

*Key words:* The Second Karabakh War, post-war period, France, Armenia, Azerbaijan, geopolitical rivalry

France’s position on Armenia-Azerbaijan relations and the Second Karabakh War is particularly noteworthy. As one of the co-chairs of the OSCE Minsk Group, France’s stance has always been a sensitive issue for Azerbaijan. However, France has consistently taken an openly pro-Armenian position in Armenia-Azerbaijan relations. Not only during the Second Karabakh War but also against the backdrop of new geopolitical realities in the South Caucasus during the post-war period, France continues to pursue its previous policy. Undoubtedly, such an approach directly contradicts the neutrality policy expected of “peace-loving” France as one of the five permanent members of the UN Security Council. This article analyzes the role, position, and plans of France during the Second Karabakh War and the post-war period.

***Daxil oldu: 17.11.2025-ci il***